**İncəsənət məktəb və mərkəzlərinə təhsilalanların elektron qəbul proseduru**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə (bundan sonra İncəsənət məktəb və mərkəzləri) təhsilalanların elektron qəbul proses “my.culture.az” vahid şəxsi kabinet üzərindən aparılır.

1. İstifadəçi, “ASAN LOGİN” (“Digital Login”) vasitəsilə müvafiq identifikasiya/autentikasiya prosesi keçməklə “my.culture.az” vahid şəxsi kabinetə daxil olur.







“My Culture” kabinetinə giriş ölkə üzrə vahid “Asan Logın” (“Digital Login”) sistemi vasitəsilə mümkündür. “Asan Logın” (“Digital Login”) - Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən yaradılan və ölkə üzrə müxtəlif informasiya sistemlərində (veb, mobil) mərkəzi autentifikasiyanı va avtorizasiyanı təmin edən vahid giriş sistemidir. “Asan Login” (Digital Login) ilə bağlı ətraflı məlumatı https://asanlogin.my.gov.az/faq keçidi vasitəsilə əldə edə bilərsiniz.

https://www.youtube.com/watch?v=UCBVu2hyzv8

https://www.youtube.com/watch?v=XWvnIORg1_E

2. İstifadəçi, “my.culture.az” vahid şəxsi kabinetə daxil olduqdan sonra “Müraciətlər” bölməsinə keçid edərək “Yeni müraciət” alt bölməsindən təhsil alacaq şəxsə dair zəruri məlumatları (18 yaşdan kiçik övladı üçün müraciət etdikdə, həmçinin zəruri valideyn/qanuni nümayəndə məlumatlarını) daxil edir, eləcə də təhsil alacaq şəxsin təhsil almaq istədiyi şəhər/rayon, məktəb/mərkəz, ixtisas və sinfi (I və ya VIII) seçərək müraciət göndərir.

İstifadəçilər təhsil üçün müvafiq yaş kateqoriyaları və təhsil növü nəzərə alınmaqla təhsil almaq məqsədilə ya özü üçün, ya da 18 yaşdan kiçik övladı üçün müraciət edə bilərlər.

18 yaşı tamam olmuş şəxslər təhsil almaq məqsədilə “my.culture.az” vahid şəxsi kabineti vasitəsilə özləri müraciət etməlidirlər.



3. Müraciət göndərildikdən sonra istifadəçi elektron poçt və şəxsi kabinet vasitəsilə növbəli şəkildə ilk olaraq “Müraciətin qəbulu”, imtahan tarixinə qədər isə “İmtahan keçiriləcək məkan və tarix” ilə bağlı bildirişlər alır.




4. Təhsilalanların qəbulunun imtahan mərhələsi fiziki formada təşkil olunduğu üçün “Təhsil alacaq şəxs” “İmtahan keçiriləcək məkan və tarix” bildirişində qeyd olunan məkana müəyyən olunmuş tarixdə “Şəxsiyyətini təsdiq edən sənəd” (şəxsiyyət vəsiqəsi) ilə yaxınlaşmalı və imtahanda iştirak etməlidir.

5. Ölkə üzrə bütün imtahanlar bitdikdən sonra, imtahanda iştirak etmiş bütün şəxslər elektron poçt və şəxsi kabinet vasitəsilə “İmtahan nəticələri” bildirişi alır.

6. İstifadəçi “İmtahan nəticələri” bildirişini aldıqdan sonra elektron qəbul prosesini tamamlamalıdır.




Bunun üçün istifadəçi, “my.culture.az” vahid şəxsi kabinetinə daxil olub “Müraciətlər” bölməsinə keçid edərək “Yerləşdirmə” alt bölməsindən zəruri məlumatları daxil edib, müvafiq sənədləri sistemə əlavə etməklə və tələb olunacağı təqdirdə təhsil haqqını elektron qaydada ödəməklə cari tədris ili üçün təhsil alacağını təsdiqləyərək elektron qəbul prosesini tamamlayır.

“Yerləşdirmə” alt bölməsindən imtahan nəticələri üzrə Apellyasiya şikayəti də verilə bilər.

1-ci sinif üzrə ödənişsiz təhsil:



1-ci sinif üzrə ödənişli təhsil:




8-ci sinif üzrə ödənişsiz təhsil:



8-ci sinif üzrə ödənişli təhsil:

